# İnsan amili dövlət siyasətində prioritetdir

***Ölkəmizdə həyata keçirilən islahatlar artıq bütün sahələri əhatə edib. Hətta koronavirus pandemiyasının dünyanı ağuşuna almasına baxmayaraq, nəzərdə tutulan sosial proqramların icrası istiqamətində qətiyyətli addımlar atılır. Bu da əhalinin güzəranının yaxşılaşdırılmasına öz müsbət təsirini göstərir. Son illər əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlər davam etdirilmiş və bu tədbirlərin əhatə dairəsi daha da genişləndirilmişdir. Budur, ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində islahatların növbəti mərhələsinə start verildi.***



Prezident İlham Əliyevin imzaladığı yeni sərəncamla minimum aylıq əməkhaqqının məbləği artırılaraq, 250 manatdan 300 manata çatdırılır. Bu sərəncamın 1 yanvar 2022-ci ildən tətbiq edilməsinə baxmayaraq, əhalinin güzəranının yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Prezidentin digər sərəncamı ilə dövlət büdcəsindən maliyyələşdirilən bir sıra təşkilatlarda çalışanların da əmək haqqı artırılıb. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri də bu sərəncama uyğunlaşdırılacaq.

Dünyanın əksər ölkələri pandemiyanın vurduğu zərərin təsirindən hələ də özünə gələ bilmədiyi bir vaxtda ölkəmizdə minimum əmək haqqının və müxtəlif sahələrdə çalışan insanların əmək haqlarının artırılması düzgün müəyyənləşdirilmiş iqtisadi siyasətin nəticəsidir. Nəzərə almaq lazımdır ki, minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir. Bundan ötrü müəyyən resurslara malik olmalıyıq. Göründüyü kimi, ölkəmizin iqtisadi qüdrəti bütün bunlara nail olmağımıza imkan yaradacaq.

Ermənistan üzərində qazandığımız tarixi Qələbədən sonra Qarabağda genişmiqyaslı quruculuq, abadlıq, yenidənqurma işlərinə başlanılıb. Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait də ayrılıb. Bu il mayın 3-də Prezident İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” sərəncam da imzalamışdır. Dövlət başçısı bu ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 1 milyon 391min ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır. Bütün bunlarla bərabər, minimum əməkhaqqının və dövlət büdcəsində çalışanların əməkhaqlarının artırılması insan amilinin dövlət siyasətinin prioritetini təşkil etməsindən xəbər verir. Bu artım son üç ildə sosial sahədə inqilabi xarakter alan, bütün istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların davamıdır. Dövlət başçısının sərəncamları ilə minimum əməkhaqqında mütəmadi artımlar davamlı xarakter alıb. Son üç ildə mühüm irəliləyiş kimi, ölkəmizdə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq, 130 manatdan 300 manata çatdırılıb.

***Kamil SEYİDOV,***
***Azərbaycan Azad Respublikaçılar Partiyasının sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru***

Xalq qəzeti.- 2021.- 21 dekabr.- S.9.